# Qızıl hərflərlə yazılan Zəfər

**Zəfər Günü - bu gün yalnız tarixin səhifələrinə qızıl hərflərlə yazılmış qələbə deyil, həm də milli qürurun, iradənin, döyüş ruhunun zirvəsidir. Bütün azərbaycanlıların həsrətlə gözlədiyi bu gün, əslində xalqımızın yüzillik arzularının, ümidlərinin çiçəkləndiyi andır.**

Zəfər Gününün mahiyyətini anlamaq üçün tarixin dərinliyinə varmalı, millətimizin üzləşdiyi çətinliklərə, acılara şahid olmalıyıq. Bu, yalnız 4 illik zəfər, 44 günlük qələbə deyil, əsrlər boyu yağı düşmənin, işğalın, təzyiqlərin qarşısında dayanan, sınmayan, ayaqda qalan xalqın qələbəsidir. Azərbaycan torpaqları işğaldan azad edilərkən, xalqın ruhu da yenidən dirildi, milli kimlik, milli şüur öz qüdrətli gücünü yenidən nümayiş etdirdi.

Azərbaycan Ordusunun göstərdiyi cəsarət və qətiyyət dillərə dastan oldu, qlobal arenada Azərbaycan əsgərinin şücaəti heyranlıqla izlənildi. Hər bir əsgərin gözündə yalnız qələbə inancı, xalqına sevgi, vətəninə bağlılıq parlayırdı. Ordumuzun irəli getməsinə mane ola biləcək heç bir qüvvə, heç bir çətinlik yox idi. Onlar bu torpağın, bu millətin gələcəyi uğrunda savaşır, bu xalqın haqq səsi olmaq üçün vuruşurdular. Və hər bir zirvəni, hər bir səngəri addım-addım keçərək tarixdə bəlkə də misli görünməmiş bir rəşadət göstərdilər.

Zəfər Günü həm də bir millətin birliyinin, həmrəyliyinin ən gözəl göstəricisidir. Bu zəfər ancaq ordunun deyil, bir xalqın zəfəri idi. Xalqın dünyaya bir cəbhədən, bir ürəkdən "Biz varıq, biz güclüyük!" mesajı idi. Bu gün hər bir azərbaycanlının harada yaşamasından asılı olmayaraq, bu zəfərə şahid olub qürurlanması üçün səbəbdir.

Zəfər Günü gələcək nəsillərə də dərs olacaq. Bu zəfərdən hər bir gənc, hər bir insan dərs çıxarmalıdır. Çünki zəfərin ən böyük mirası məhz xalqın öz gücünü, birliyini anlamasıdır. Bu gün Azərbaycan xalqının tarixində yeni bir dövrün başlanğıcıdır. Zəfər Günü təkcə keçmişin deyil, gələcəyin də zəfəridir. Bu, Azərbaycanın gələcəkdə də öz haqqını tələb edəcəyinin, gücünü sübuta yetirəcəyinin qarantıdır. Gələcək nəsillər millətinin şücaətindən güc alacaq, xalqın ruhundan qidalanacaq. Bu zəfər Azərbaycan xalqının qarşısına çıxan hər bir çətinliyi aşacağını sübut etdi.

Zəfər Günü yalnız bir qələbə tarixi deyil, həm də illərlə çəkilən əzabların sona çatdığı, milyonlarla insanın göz yaşlarının sevinc göz yaşlarına çevrildiyi gündür. Bu gün tarixdə 44 gün davam edən 3000 igid əsgərimizin şəhid olduğu, 100-dən çox yaşayış məntəqəsinin geri alındığı, 10 mindən çox düşmən texnikasının məhv edildiyi böyük mübarizənin zirvəsidir. 44 günlük Vətən müharibəsinin gedişatı Azərbaycan Ordusu öz gücünü dünyaya sübut etdi, düşmənin illərlə qurduğu hərbi mövqeləri bir anda darmadağın edərək, nəinki ərazi bütövlüyünü bərpa etdi, həm də Qafqazda yeni tarixi bir səhifə açdı. Bu, təkcə hərbi deyil, həm də siyasi və diplomatik zəfər idi.

Tarixi zəfərimizin əsasında illərlə davam edən möhkəm hazırlıq, dövlət və xalq arasında yaranmış güclü birlik dayanırdı. Xalqımızın hər bir fərdi öz gücü çərçivəsində müharibənin qələbəylə nəticələnməsi üçün can atırdı. Xalq arasında yaradılmış hərbi fondlar, əsgərlərə göstərilən dəstək, onlara göndərilən minlərlə məktub, dualar bu qələbənin mənəvi əsasını təşkil edirdi. Birliyimizin nümunəsi olan 2 milyona yaxın insan orduya könüllü olaraq maddi və mənəvi dəstək göstərmişdi. Hər bir əsgərimizə arxa olan xalqımız torpaqlarımızın azadlığı uğrunda hər şeydən keçməyə hazır idi.

Bu gün Şuşa dağlarında, Cəbrayıl düzlərində, Zəngilan təpələrində yenidən Azərbaycan bayrağının dalğalandığı gündür. Hər bir şəhidimizin xatirəsi bu zəfərdə yaşayır, onların qanı ilə yazılmış bu zəfər gələcək nəsillərə əmanətdir. Onların sayəsində əldə edilən hər qarış torpaq bizim üçün müqəddəsdir, bu gün isə o müqəddəs zəfərin bayramıdır.

Xalqın birliyi, dövlətin əzmi və hərbçilərimizin igidliyi ilə qazanılan bu zəfər Azərbaycanın gücünün və əzminin simvoludur. Gələcəkdə hər bir azərbaycanlı bu günü böyük qürur hissi ilə qeyd edəcək.

Bu bayramın hər addımında yenidən qürur duyacağımız, hər dəfə bu zəfərə sarılaraq güc alacağımız bir tarix yazıldı. Tarixə adımızı qızıl hərflərlə həkk edən, Azərbaycanı dünyanın gözü qarşısında yenidən ucaldan Zəfər Günü. Bu günü əbədiyyətin, sonsuzluğun günüdür. Bu zəferi yaradanlar, yaşadanlar heç vaxt unudulmayacaq, hər zaman qəlblərdə yaşayacaq.

**Tacir SADIQOV,**
**"Respublika".**

Respublika.-2024.- 8 noyabr (№ 247).- S.10.